**SOLMAZ SADIQOVA**
***Biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi,***
***Bakı Dövlət Universiteti***

# AZƏRBAYCAN ÜMUMİ RETROSPEKTİV BİBLİOQRAFİYASININ TARİXİ İNKİŞAFI VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

XX əsrin sonlarında Azərbaycan xalqının dövlət müstəqilliyinin bərpası onun əldə etdiyi ən mühüm nailiyyətlərdən biridir. Azərbaycan Respublikasının milli dövlət quruculuğuna başlaması, onun müstəqil dövlət kimi dünya birliyinə qoşulması prosesi böyük əhəmiyyət kəsb edir. Ölkəmizin müstəqillik əldə etməsi əsrlər boyu yaranıb formalaşmış milli mənəvi dəyərlərimizdən daha səmərəli istifadə üçün imkanlar yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» Sərəncamında deyilir: «Azərbaycan kitabxanaları Azərbaycan xalqının milli sərvətidir. Xalqımızın yaratdığı qiymətli tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanmasında, bəşər mədəniyyətinin qazandığı nailiyyətlərin nəsildən-nəslə çatdırılmasında və cəmiyyətimizin intellektual-mənəvi potensialının artırılmasında kitabxanalarımız əvəzsiz rol oynayır» [1].

Biblioqrafiya işi də kitabxanaların mühüm hissəsi olub, biblioqrafik məlumatın hazırlanması və tələbatçılara çatdırılması ilə əlaqədar olan proseslərdən ibarətdir. Biblioqrafiyanın ictimai yönümünə görə ilkin fərqləndirilməsi sayəsində «ümumi» və «xüsusi» biblioqrafiya anlayışı yaranmışdır. Elə bölgü biblioqrafiyanın iki sahəsi arasında olan və biblioqrafik informasiyanın axtarışı və kommunikasiya (ümumi biblioqrafiya) və qiymətləndirmə (xüsusi biblioqrafiya) kimi əsas ictimai funksiyaların həyata keçirilməsi ilə əlaqədar ilkin mahiyyət fərqlərinə əsaslanır.

Biblioqrafik informasiyanın axtarış və kommunikasiya funksiyaları eyni dərəcədə formal xarakterə malikdirlər. Bu funksiyaların həyata keçirilməsi vasitələri zahiri fərqlərinə baxmayaraq biblioqrafiyalaşdırılan sənədlərin formalarına və ya məzmununa əsaslanır və informasiya tələbatçıları nəzərə alınmır. Buna kitabxananın əlifba kataloqunu və «Birillik Azərbaycan kitabiyyatı»nı misal göstərmək olar. Ümumi biblioqrafiya çərçivəsində yaradılan biblioqrafik informasiya mənbələrinin konkret məqsəd və oxucu istiqamətinin, müəyyən xidmət sahəsi ilə bilavasitə əlaqəsinin olmaması bunu təsdiq edir.

Ümumi biblioqrafik fəaliyyət nəticəsində bu və ya digər tələbatçı qrupunun ehtiyacı nəzərə alınmır. Lakin sənədlərin eyniləşdirilməsini və axtarışını təmin edən və beləliklə geniş tələbatçı aləmində maraqlı olan biblioqrafik informasiya yaradılır. Başqa sözlə, ümumi biblioqrafiya hamı üçündür. Məhz bu funksional xüsusiyyət ümumi biblioqrafiyanı biblioqrafiyanın ümumi istiqamətlərinə görə iki əsas bölmələrdən kimi götürməyə imkan verir.

Kommunikasiya istiqamətli ümumi biblioqrafiya tələbatçılara mövcud olan sənəd kütləsi və axını haqqında informasiya vermək vəzifəsini yerinə yetirir. Kommunikasiya istiqamətli ümumi biblioqrafiya çərçivəsində çap məhsulunun mövcud olduğu bütün dövr ərzində tam uçotu həyata keçirilir. Yaradılan ümumi retrospektiv biblioqrafik informasiya mənbələrinin xarakterik cəhətləri həmin biblioqrafiyanı şərti olaraq, repertuar biblioqrafiyası adlandırmağa imkan verir.

«Azərbaycan kitabı»nın ümumi biblioqrafik göstəricinin ilk nümunəsi kimi 1951-ci ildə Kitab palatası tərəfindən nəşr edilmiş «Azərbaycan kitabı» göstəricisidir [6]. S.Əliyevin tərtib etdiyi, Ə.Qəhrəmanovun redaktoru olduğu bu biblioqrafik vəsait

1940-1950-ci illər arasında Azərbaycan dilində nəşr olunmuş orijinal və tərcümə kitablarını əks etdirir.

Biblioqrafik göstəricidə dərs proqramları, təlimatlar, nazirliklərin çap olunmuş əmrləri, musiqi notları və bu kimi xarakterdə olan çap məhsulatından başqa bütün kitab və kitabçalar öz əksini tapmışdır.

1959-cu ildə Azərbaycan SSR Mədəniyyət Nazirliyi «Azərbaycan kitabı» göstəricisi haqqında əsasnamə təsdiq edir və bu əsasnaməyə görə Azərbaycan kitabının ümumi retrospektiv göstəricisi 3 clddə nəzərdə tutulur. Birinci cildə 1920-ci ilə qədər nəşr olunan kitablar daxil edilməli, ikinci cild 1920-1940-cı illəri, üçüncü cild isə 1940-1960-cı illəri əhatə etməli idi. Sonra isə hər beşillik üçün yerli çap məhsullarının qeydini əks etdirən əlavə buraxılışların çap olunması nəzərdə tutulurdu. 1963-cü ildə Ə.Y.Əliyev tərəfindən tərtib olunmuş «Azərbaycan kitabı»nın birinci cildi çapdan çıxdı [7] və bu göstəriciyə müqəddiməni professor Ə.Mirəhmədov yazmışdır. Repertuar tipli milli retrospektiv göstəricilərin keyfiyyət meyarından biri onların dolğunluğudur. Bu biblioqrafik göstərici çapdan çıxandan sonra mətbuatda yüksək qiymətləndirilmişdir. 1780-1920-ci illərdə çap olunmuş 1329 adda kitab haqqında məlumat verən bu göstəricinin tərtibində iki meyar əsas götürülmüşdür:

1. Azərbaycanlı müəlliflərin əsərləri. Bu halda onların yaşadıqları yerdən, hansı dildə yazdıqlarından və harada nəşr olunmasından asılı olmayaraq bütün əsərləri göstəriciyə daxil edilmişdir.

2. Dil əlaməti, yəni müəlliflərin milliyətindən, əsərlərinin nəşr yerindən asılı olmayaraq, Azərbaycan dilində olan bütün kitablar.

Gərgin zəhmət və axtarış, xüsusi tədqiqat tələb edən bu göstəricinin tərtibi prosesində respublikanın və ölkənin 20-dən çox iri kitabxanasının fondu nəzərdən keçirilmişdir. Göstəriciyə Əziz Mirəhmədov tərəfindən Azərbaycan kitabının tarixi icmalını əks etdirən geniş müqəddimə verilmişdir. Bundan sonra vəsaitə daxil edilmiş materialların biblioqrafik təsvirləri xronoloji qaydada düzülmüş, nəşr ili məlum olmayan əsərlər isə ayrıca qruplaşdırılmışdır. Belə düzülüş Azərbaycan kitabının nəşr tarixini, onun keçdiyi inkişaf yolunu izləməyə imkan verir.

Vəsaitin ən diqqətəlayiq cəhətlərindən biri ona zəngin yardımçı göstəricilərin tərtib olunmasıdır. Bu göstəricilər vasitəsilə 1920-ci ilə qədər kitabların mövzu dairəsini, müəyyən müəllifin əsərlərinin nəşrini, bir əsərin müxtəlif nəşrlərini, mütərcim və təbdil edənləri, naşirləri, Azərbaycan kitabının dil və coğrafi sərhədlərini, onların hansı kitabxanalarda yerləşdiyini və digər məlumatları asanlıqla müəyyənləşdirmək olar. Bunlar vəsaitin axtarış imkanlarını genişləndirmiş, onun səmərəliliyini yüksəltmişdir.

Belə qiymətli bir göstəricinin nəşrindən artıq 46 ildən çox müddət keçmiş və bu vəsait kitabxanalarda nadir nüsxəyə çevrilmişdir. Vəsaitin tərtibi zamanı «Milli kitab» məfhumunun dəqiq müəyyənləşdirilməməsi nəticəsində Azərbaycanda başqa dillərdə çıxan kitabların buraya daxil edilməməsi, Azərbaycan müəlliflərinin xarici nəşrlərinin tam verilməməsi, təkrar nəşrlərin həmişə göstərilməməsi, orijinal və tərcümə nəşrlərinin bir yerdə verilməsi, biblioqrafik təsvirdə vahid qaydalara riayət olunmaması və s. çatışmazlıqlar da onun elmi dəyərinə və informasiya potensialına mənfi təsir göstərməyə bilməz. Bundan başqa göstəricinin çap olunduğu vaxtdan sonrakı müddət ərzində araşdırmalar aparılmış, bir sıra məlum olmayan kitablar müəyyənləşdirilmişdir ki, bu da «Azərbaycan kitabı» göstəricisinin daha da zənginləşməsinə imkan verərdi. Məsələn, «Kitablar aləmində» Azərbaycan SSR Elmlər Akademiyası Respublika Əlyazmaları İnstitutunda saxlanılan və «Azərbaycan kitabı» göstəricisində öz əksini tapmayan 24 adda kitabın siyahısı verilmişdir. 1825-1914-cü illər arasında Bakıda, Təbrizdə, Tehranda, Tiflisdə və b. şəhərlərdə çap olunmuş bu kitablar müəllifin qeyd etdiyi kimi dini məz-

munda olsa da Azərbaycan kitabının nəşr tarixini öyrənmək baxımından qiymətlidir. Buna görə də «Azərbaycan kitabı»nın birinci cildinin yeni tamamlanmış və mükəmməl nəşrinə başlanması qarşıda duran əsas vəzifələrdən biri olmalıdır.

«Azərbaycan kitabı» biblioqrafik vəsaitinin ən üstün cəhətlərindən biri burada mükəmməl yardımçı göstəricilərin verilməsidir. Ümumiyyətlə, Azərbaycanda çap olunan biblioqrafik vəsaitlər içərisində ən mükəmməl köməkçi göstəricilər bu kitabda tərtib olunmuşdur.

İkinci belə biblioqrafik göstərici, Azərbaycan kitabının II cildinin I kitabı 1982-ci ildə çapdan çıxmışdır [8]. Biblioqrafik göstəricidə 1920-1940-cı illərdə çapdan çıxmış Azərbaycan kitabları daxil edilmişdir. Hələ də bu biblioqrafik göstərici bir kitabdan ibarətdir. I kitabda ancaq humanitar elmlərə aid kitablar öz əksini tapmışdır.

Bu biblioqrafik göstəricidə 1920-1940-cı illərdə Azərbaycanda və keçmiş SSRİ respublikasında Azərbaycan dilində çıxmış humanitar profilli ədəbiyyat əks olunmuşdur. Retrospektiv göstəricidə sosial-siyasi mövzunu kitablar, ədəbi əsərlər və həmçinin tarix, pedaqogika, maarif, dilçilik, ədəbiyyatşünaslıq, incəsənət, idman, mətbuat, kitabxanaçılıq və bib-lioqrafiya sahələrinə aid kitabların biblioqrafik təsviri verilmişdir.

1920-1940-cı illəri əhatə edən «Azərbaycan kitabı» adlı retrospektiv göstəricinin hazırlanmasında Respublika Kitab Palatasının, keçmiş SSRİ Kitab Palatasının, (keçmiş) Rumyantsev adına Rusiya Dövlət Kitabxanasının, M.Y.Saltıkov-Şedrin adına Leninqrad Dövlət Kitabxanasının və Gürcüstan Dövlət Kitab Palatasının arxiv materiallarından istifadə olunmuşdur.

V.C.Mirzəyeva, M.Ə.Zabalova və N.A.İsmayılova tərəfindən tərtib olunmuş bu cilddə keçmiş SSRİ ərazisində 1920-1940-cı illər ərzində Azərbaycan dilində çıxmış humanitar profilli ədəbiyyat əks olunmuşdur. Yəni, girişdə qeyd edildiyi kimi, göstəricidə ictimai-siyasi mövzulu kitablar, bədii əsərlər, həmçinin tarixə, pedaqogikaya, maarifə, dilçiliyə, ədəbiyyatşünaslığa, incəsənətə, idmana, mətbuata, kitabxanaşünaslıq və biblioqrafiyaya dair kitablar haqqında biblioqrafik məlumat verilmişdir.

Göstəricidə hər şöbə daxilində ədəbiyyatın düzülüşü əlifba qaydasında aparılmışdır. Biblioqrafik göstəricinin oxucu dairəsini genişləndirmək məqsədi ilə biblioqrafik təsvirdə müəlliflərin adı və sərlövhəsi rus dilində tərcümə olunmuşdur.

1920-1940-cı illəri əhatə edən humanitar profilli ümumi retrospektiv göstəricidə 7063 adda ədəbiyyatın biblioqrafik təsviri verilmişdir. Bu sənədlərin hamısı yalnız Azərbaycan dilindədir.

Azərbaycan kitabı göstəricisinin ikinci cildinin birinci kitabının sonuncu şöbəsi ümumi xarakterli soraq kitablarını əks etdirir. Bu şöbə daxilində 1920-1940-cı illərdə Azərbaycanda çıxmış ensiklopediyaların, təqvimlərin və qarışıq məzmunlu məcmuələrin biblioqrafik təsviri verilmişdir. Beləliklə, həmin şöbədə Azərbaycanda Şura Ensiklopediyası və başqaları haqqında biblioqrafik informasiya almaq olar.

Qeyd etdiyimiz kimi, 1920-1940-cı illərin kitablarını əks etdirən Azərbaycan kitabının II cildinin birinci kitabında sistemli qruplaşma əsas götürülmüşdür və bu da onun əhəmiyyətli cəhəti kimi qeyd olunmalıdır.

Ümumiyyətlə, köməkçi göstərici dedikdə biblioqrafik vəsaitin çap əsərləri haqqında ayrı-ayrı məlumatları müvafiq biblioqrafik yazılara isnad etməklə vəsaitin əsas mətndəkindən fərqli aspektdə əks etdirən hissəsi başa düşülür. Göstərici əsas mətnlə, yəni biblioqrafik xəbərvermə hissəsi ilə yanaşı, metodiki məlumat aparatına da malikdir. Bu aparata «Tərtibçilərdən» adı ilə məqalə, «Azərbaycan Sovet kitab mədəniyyəti 1920-1940-cı illərdə» adlı giriş məqaləsi (müəllif prof. Ə.Mirəhmədovdur), «Fərdi müəlliflərin əlifba göstəricisi» və «Müəllifsiz kitabların əlifba göstəricisi» kimi iki köməkçi göstərici daxildir.

Ümumiyyətlə, repertuar xarakterli, yekunlaşdırıcı biblioqrafik vəsaitlər universal göstəricilər silsiləsinə daxildir. Belə ki, bunların tərtibində formal əlamət (nəşr növləri, xronoloji çərçivə, dil, ərazi və s.) əsas götürülür və məzmun ikinci mərhələdə həll olunur. Deməli, nəzərdə tutulan xronoloji çərçivədə hansı kitabların çap olunduğunu dəqiqləşdirmək əsas amil olur. «Azərbaycan kitabı» göstəricisinin bu hissəsinin tərtibində də həmin prinsipə əsaslanılmış, ilk növbədə bütün kitabların meydana çıxarılmasına çalışılmış və sonra əldə edilən kitablar məzmunlarına görə qruplaşdırılmışdır.

Biblioqrafik göstəricidə verilmiş fərdi müəlliflərin əlifba göstəricisi də bu biblioqrafik göstəricidən istifadəni xeyli asanlaşdırır. Müəlliflərin köməkçi göstəricisi dedikdə, biblioqrafik göstəricidə əks olunmuş çap əsərlərinin müəlliflərinin, tərtibçilərinin əlifba siyahısından ibarətdir.

Ümumi biblioqrafik informasiya ehtiyatlarının inkişa meyllərindən danışarkən dövri mətbuatımıza həsr olunmuş biblioqrafik göstəricilər qeyd etmək lazımdır. Belə vəsaitlərdən Azərbaycan türk mətbuatı» (1922), «Azərbaycanda dövri mətbuat (1832-1920)» (1965), «Azərbaycan dövri mətbuatı» (1920-1970)» (1979), «Azərbaycan mətbuatı (1832-1920)» (1987), «Azərbaycan dövri mətbuatı (1875-1990) (1993), M.Tərbiyətin «Danışməndani-Azərbaycan» kitabının sonunda verilmiş «Kitabın yazılmasınadək Azərbaycan mətbuatı» (1987) və s. biblioqrafik informasiya mənbələri böyük əhəmiyyət kəsb edir [2; 3; 4; 5].

Birinci buraxılış «Azərbaycanda dövri mətbuat» adı ilə (tərtib edəni: N.Axundov) 1965-ci ildə, ikinci tamamlanmış və əlavələrlə olan buraxılış 1987-ci ildə çapdan çıxmışdır. Üçüncü isə 1979-cu ildə AMEA-nın Mərkəzi Elmi Kitabxanası tərəfindən nəşr edilmiş, birinci və ikincinin davamı kimi nəzərdə tutularaq 1920-1970-ci illərin Azərbaycan dilində çıxan dövri və ardı davam edən nəşrlərini əhatə edir. Beləliklə, dövri mətbuatın 1970-ci ilə qədər biblioqrafik modeli mövcuddur. Lakin burada da natamamlıq özünü göstərir. Bu da Azərbaycanda 1920-ci ildən sonra başqa dillərdə işıq üzü görmüş dövri nəşrlərin nəzərə alınmaması ilə əlaqədardır. Azərbaycan kitabının biblioqrafik repertuarı isə bir başa demək olar ki, çox aşağı səviyyədədir.

Bu məsələ ilə əlaqədar professor X.İsmayılov da mətbuatda çıxış edərək qeyd edir [10] ki, 80-ci illərin ortalarından bəri çox vacib olan dövlət, uçot-qeyd biblioqrafiyası həyata keçirilir. Nəticədə kitab illikləri, kitab, qəzet, jurnal salnamələri çap edilmir. Hətta Respublika Statistika Komitəsinin bu yaxınlarda çap etdirdiyi «Müstəqil Azərbaycan» (Bakı, 2001-ci il), məcmuələrində belə kitab nəşri və onun uçotu haqqında heç bir məlumat verilmir. Buna görə də respublikamızda ilk növbədə yeni nəşrlər haqqında operativ informasiya sistemi yaradılmalı, bu məqsədlə Dövlət Kitab Palatasının fəaliyyəti bərpa olunmalıdır.

Ümumi biblioqrafiyanın əsas mərkəzi sayılan Respublika Dövlət Kitab Palatası 1925-ci ildən fəaliyyət göstərir. M.F.Axundov adına Milli Kitabxanada çap məhsullarının qeydiyyatı və milli biblioqrafiya şöbəsi (Kitab palatası) bu işi davam etdirir [15]. «Kitab salnaməsi», «Mətbuat salnaməsi», «Birillik Azərbaycan kitabiyyatı» və s. kimi biblioqrafik nəşrləri çap etmişdir. 1987-ci ildən bu nəşrlər məlum səbəblərə görə dayandırılmışdı. 2003-cü ildə şöbə Milli Kitabxananın nəzdində fəaliyyətə başlamış və «Birillik kitabiyyat»ın 1990, 1991, 2000-ci illəri hatə edən nəşrləri işıq üzü görmüşdür. Şöbənin vəzifələri Respublikada çap olunan kitablar haqqında analitik biblioqrafik məlumatları tez və vaxtında hazırlayıb oxuculara təqdim etmək, biblioqrafik vəsaitlərin tərtibi ilə yanaşı məlumat, biblioqrafiya işləri və ölkədə çap məhsulların uçotunu aparmaqdan ibarətdir.

Milli Azərbaycan kitabının ümumi retrospektiv biblioqrafik repertuarının yaradılması probleminin həlli iki elmi və təcrübi əhəmiyyətli iş üçün çox vacibdir. Bunlar-

dan birincisi, Azərbaycanda kitab nəşrinin inkişafında əldə edilmiş nailiyyətlərin biblioqrafik baxımdan ümumiləşdirilməsi və onların haqqında ən dolğun informasiya əldə edilməsi ilə əlaqədardır. İkincisi isə milli kitablarımızın həm zaman, həm də məkan etibarilə retrospektiv axtarışının müvəffəqiyyətlə təmin edilməsi ilə bağlıdır.

Azərbaycan kitabının biblioqrafik repertuarının yaradılması işi davam etdirilir. Amma bu proses çox ləngiyir. İkinci cildin birinci kitabının 19 illik fasilədən sonra meydana gəlməsi «Azərbaycan kitabı» biblioqrafiyasına biganə münasibətin, onun ictimai mahiyyətinin lazımi dərəcədə qiymətləndirilməməsinin nəticəsindən başqa bir şey deyildir. Lakin bütün bunlara baxmayaraq «Azərbaycan kitabı»nın ikinci cildinin birinci kitabı əsaslı biblioqrafik göstərici kimi Azərbaycanda biblioqrafik fəaliyyətin olduqca mühüm hadisəsi hesab edilməlidir. Belə bir şəraitdə xüsusi elmi əhəmiyyətə malik «Azərbaycan kitabı» göstəricisinin nəşrinin başa çatdırılması biblioqrafik təminat üçün əhəmiyyətli töhfə olardı.

Elmi-texniki tərəqqinin inkişafı ilə əlaqədar olaraq kitabxana fondlarına çap materialları ilə yanaşı elektron nəşrlər, audiovizual materiallar da daxil olur ki, bunları ənənəvi kitabxanalarda emal etmək mümkün deyil və s. Bütün bunlar kitabxana proseslərinin kompüterləşdirildiyi bir dövrdə ənənəvi kitabxana sistemlərinin şəbəkə kompüter texnologiyası bazası əsasında yaradılmış yeni informasiya kitabxana sistemləri ilə əvəz edilməsini zəruri edir. Çünki bu sistemlər istifadəçi sorğusunu operativ yerinə yetirə bilən informasiya axtarış sistemləri ilə təmin olunurlar.

Ümumi biblioqrafik informasiya ehtiyatlarının inkişafında Azərbaycan mətbuatının biblioqrafik repertuarının yaradılması sahəsində mövcud problemlərin aradan qaldırılması və inkişafı üçün yuxarıda sadalanan tövsiyələrlə yanaşı, aşağıdakı bəndlərdə qeyd olunan nəticələrin həyata keçirilməsi məqsədəuyğun olar:

– XIX əsrin əvvəllərindən Azərbaycanşünaslığa dair əsərlərin Rusiyanın Moskva, Sankt-Peterburq, Kazan və digər şəhərlərinin kitabxanalarından Azərbaycan kitabxanalarına qaytarılması;

– Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə «Dövlət Proqramı»nda deyildiyi kimi – «Azərbaycan kitab abidələri» Dövlət Reyesterinin hazırlanması, milli informasiya resurslarının elektron daşıyıcılara köçürülməsi;

– Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planında deyildiyi kimi «Azərbaycan kitabının milli biblioqrafiyasının hazırlanması və nəşri, dövlət kitabxanalarında mühafizə edilən XIX əsrin 20-ci illərində nəşr olunmuş ədəbiyyatın (kitab, qəzet və jurnalların) əlifbasının kiril qrafikasından latın qrafikasına çevrilməsinin həyata keçirilməsi və informasiya daşıyıcılarına köçürülməsinə nail olmaq»;

– Dövlət biblioqrafiya orqanı olan Azərbaycan Dövlət Kitab Palatasının əvvəlki funksiyasını yerinə yetirmək məqsədilə M.F.Axundov adına Milli Kitabxananın nəzdində yaradılmış şöbənin işini genişləndirmək, yardımçı bina ilə təchiz olunmasına nail olmaq;

– ADKP-nın fəaliyyətinin zəiflədiyi müddətdə qeydi aparılmış çap məhsulunun tam qeydinə nail olmaq həmin dövr ərzində milli qaynaqlarımızın izinin itməməsi üçün bu işi daha da gücləndirmək;

– Nadir və əhəmiyyətli kitab və sənədlərin surətlərindən Azərbaycan kitabının toxunulmaz fondunun təşkil edilməsinə nail olmaq;

– Elektron kataloq və elektron kitabxanaların yaradılması işinin təmin edilməsi, onların müasir standartlar səviyyəsinə çatdırılması;

– Hələ 1968-1981-ci illərdə Konqress Kitabxanası tərəfindən maşın vasitəsilə ABŞ və Kanadanın 1200 kitabxanasında yerləşmə göstəricisi ilə kitab çapının başlanğıcın-

dan 1956-cı ilə qədər çap olunan kitabların 770 cildlik 13 milyon biblioqrafik yazı – «Milli toplu kataloqu» buraxılıb. Azərbaycan milli məhsulunun üzə çıxarılmasında belə bir kataloqun hazırlanması mühüm vasitə hesab oluna bilər.

Heydər Əliyev Fondunda Rusiyanın «Puşkin kitabxanası» Fondundan kitabların hədiyyə edilməsi mərasimində AMEA-nın prezidenti akademik Mahmud Kərimov çıxışında demişdir: «Bu gün elektron informasiya vasitələri həyatımızın bütün sahələrinə tətbiq edilsə də, zənnimcə, kitab öz əhəmiyyətini itirməyib və necə deyərlər, bilik mənbəyi, ən yaxşı adamın sənə edə biləcəyi ən əziz hədiyyə olaraq qalmaqdadır. Azərbaycanda kitabı həmişə yüksək qiymətləndirmişlər» [12].

Azərbaycan kitabxanalarının qarşısında dünyanın qabaqcıl ölkələri kimi, müasir elektron kitabxana xidmətini yaratmaq, kitabxana-informasiya və biblioqrafik ehtiyatlarını dünya informasiya sisteminə inteqrasiyasına malik olmaq kimi ciddi problemlər durur. Bu problemlərin həlli ilk növbədə Azərbaycan tarixi, mədəniyyəti, elmi, təhsili, incəsənəti, maddi və mənəvi dəyərləri haqqında informasiyanı yaymağa imkan verəcəkdir.

### *ƏDƏBİYYAT*

1.Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Respublika. – 2007. – 21 aprel. – S.1.
2.Axundov N. Azərbaycanda dövri mətbuat (1832 – 1920): Biblioqrafiya.-B.: Elm, 1965. – 178 s.
3.Azərbaycan dövri mətbuatı (1920 - 1970) Biblioqrafiya / Tərt. ed.: Z.M.Mustafayeva. – B.: Elm, 1979. – 338 s.
4.Azərbaycan dövri mətbuatı (1832 - 1920): Biblioqrafiya / Tərt. ed.: N. Axundov. – B., 1987. – 221 s.
5.Azərbaycan dövri mətbuatı (1875 - 1990): Biblioqrafiya / Tərt. ed.: S.Rüstəmova-Tohidi.- B.: Azərnəşr, 1993. – 258 s.
6.Azərbaycan kitabı (biblioqrafiya) / Tərt. ed. S. Əliyev. – B.: ADKP nəşri, 1951. – S.6.
7.Azərbaycan kitabı: Biblioqrafiya. 3 cilddə: C. 1. B., 1963. – 220 s.
8.Azərbaycan kitabı: Biblioqrafiya (1920 - 1940) 3 cilddə. C. 2. kit. 1. – B.; Yazıçı, 1982. - 752 s.
9.Əliyev Z.H. Azərbaycan biblioqrafiyasının tarixi: Dərslik. – B.: BUN, 2007. – 184 s.
10.İsmayılov X. Kitabxana və nəşriyyat işi əlaqəli inkişaf etməlidir // Xalq qəzeti. – 2002. – 27 iyul. – S.8.
11.İsmayılov N. Azərbaycan biblioqrafiyasının biblioqrafiyası. Biblioqrafik vəsaitlərin göstəricisi. – B.: Mütərcim, 2003. – 112 s
12.Kərimov M. Heydər Əliyev fondunda Rusiyanın «Puşkin kitabxanası» fondundan kitabların hədiyyə edilməsi mərasimində çıxışı // Ədəbiyyat qəzeti. – 2006. – 3 fevral. – S.1.
13.Sadıqova S. Repertuar tipli biblioqrafik informasiya mənbələrinin axtarış imkanları // Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş Beynəlxalq Emi Konfransın materialları. Humanitar elmlər seriyası. – 30-31 oktyabr 2009-cu il. – B.: BUN, 2009.- S.493-494.
14.Садыгова С. Библиографические источники, посвященные Азербайджанским книгам, как основа национального библиографического репертуара // Объединенный научный журнал. Москва, 2009. - №8 (226) июнь. - С.65-69.
15.www.anl.az

**С.А.САДЫГОВА**
***Ст. пр. кафедры Библиографоведение***
***Бакинский Государственный Университет***

## СОСТОЯНИЕ ОБЩЕЙ РЕТРОСПЕКТИВНОЙ БИБЛИОГРАФИИ АЗЕРБАЙДЖАНА И ПУТИ УСОВЕРШЕНСТВОВАНИЯ

В статье говориться о библиографических информационных источниках посвященных Азербайджанской книге и Азербайджанской периодической печати, которые являются общими библиографическими информационными ресурсами. А также, показываются пути развития и рекомендации для создания библиографического репертуара отечественной печати, решении существующих проблем. Отмечается важная роль решения этой проблемы, в первую очередь в распространении информации об истории, культуры, науки, образовании, искусства, материальных и моральных ценностей Азербайджана.

**S.A.SADIGOVA**
***Ch. tch. of Science of bibliography department,***
***Baku State University***

## STATE OF THE COMMON RETROSPECTIVE BIBLIOGRAPHY OF AZERBAIJAN AND THE WAYS OF IMPROVEMENTS

In the article is spoken about bibliographic information resources devoted to Azerbaijani book and periodical press of Azerbaijan, which are the common bibliographic information resources. As well as showing the development and recomendations about creating a bibliographic repertory of the national press, the solution of existing problems. There are notes an important role of solving of this problem, primarily for the dissemination of information about the history, culture, science, education, art, material and moral values of Azerbaijan.

***Rəyçilər: əməkdar mədəniyyət işçisi, prof.Z.H.Əliyev, t.e.d.Q.Ə.Əliyev.***
***BDU «Biblioqrafiyaşünaslıq» kafedrasının 26 may 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №11).***